**MHŞT üzrə Çoxtərəfli Qrupun iclasının**
**Protokolundan Çıxarış № 31**

**Bakı şəhəri** **10 iyun 2014-cü il**

İştirak edirdilər:

**Çoxtərəfli Qrupun sədri**

Şahmar Mövsümov - ARDNF-nin İcraçı direktoru, MHŞT üzrə Komissiyanın sədri

**Çoxtərəfli Qrupun üzvləri**

Zaur Fətizadə – Vergilər Nazirliyinin nümayəndəsi

Bəxtiyar Axundov - Şirkətlər qrupunun nümayəndəsi

Kamran Məhərrəmov – Şirkətlər qrupunun nümayəndəsi

Araz Yusubov – Şirkətlər qrupunun nümayəndəsi

Qubad İbadoğlu - QHT-lər qrupunun nümayəndəsi

Azər Mehtiyev – QHT-lər qrupunun nümayəndəsi

Elçin Abdullayev - QHT-lər qrupunun nümayəndəsi

**Digərləri**

Fərid Fərzəliyev - MHŞT üzrə Katibliyin başçısı

Ülviyyə Mehralıyeva – MHŞT üzrə Katibliyin mütəxəssisi

Abbas Abbasov - MHŞT üzrə Katibliyin mütəxəssisi

Cəmalə Əliyeva - Dövlət Neft Fondunun nümayəndəsi

Hikmət Allahverdiyev - Mur Stefens (Moore Stephens) audit şirkətinin nümayəndəsi

Fariz Əhmədov - Mur Stefens (Moore Stephens) audit şirkətinin nümayəndəsi

Sahib Məmmədov – QHT Koalisiyasının nümayəndəsi

**İclasın gündəliyi:**

1. MHŞT-nin tətbiqinə dair hüquqi bazanın yaradılması üzrə müzakirə
2. Yeni Memorandumun imzalanması
3. Auditorun Şərtlər Toplusunun müzakirəsi
4. MHŞT üzrə 18-ci hesabatlılıq dövrünün (2013-cü ili əhatə edən) başlanması üzrə müzakirə
5. Digər məsələlər

**MHŞT-nin tətbiqinə dair hüquqi bazanın yaradılması üzrə qərara alındı:**

QHT Koalisiyasının hazırladığı MHŞT haqqında Qanun layihəsinin təqdimatı dinlənmiş hesab edilsin.

**Yeni Memorandumun imzalanması üzrə qərara alındı:**

1. MHŞT üzrə yeni Memorandum 10 iyun 2014-cü il tarixində imzalanmış, 24 noyabr 2004-cü il tarixli Memorandum və ÇQ-nin fəaliyyətinə dair Razılaşma isə qüvvədən düşmüş hesab edilsin.
2. Yeni Memorandum MHŞT-nin rəsmi internet səhifəsində yerləşdirilsin və qüvvədən düşmüş sənədlər ləğv olunsun.
3. Azərbaycanın MHŞT tərəfləri arasında yeni Memorandumun imzalanması haqqında pres-reliz dərc olunsun.

**Auditorun Şərtlər Toplusunun müzakirəsi üzrə qərara alındı:**

1. Auditorun Şərtlər Toplusunun əsas mətni ÇQ tərəfindən təsdiq edilmiş hesab edilsin.

2. Auditorun hesabatında yer alacaq sintetik cədvəllər və kontekstual məlumatların hazırlanması işinə dəstək vermək üçün ÇQ üzvləri əsas üzvlər - Q.İbadoğlu, K.Məhərrəmov, Z.Fətizadə və əvəzedici üzvlər - A.Mehtiyev, A.Yusubov () ibarət İşçi qrup yaradılsın.

**MHŞT üzrə 18-ci hesabatlılıq dövrünün (2013-cü ili əhatə edən) başlanması üzrə qərara alındı:**

MHŞT üzrə 18-ci hesabatlılıq dövrü (2013-cü ili əhatə edən) başlanılsın və MHŞT üzrə Katiblik tərəfindən müvafiq tədbirlər görülsün.

ÇQ-nin iclası bağlı elan olundu.